# Bahar BƏRDƏLİ



Hörmətli Bahar xanım!

Sizi - tanınmış yazıçı, şair, ədəbiyyatşünas alimin ədəbi-bədii, elmi fəaliyyətinizin 45 illiyi və yubileyiniz münasibətilə təbrik edirik!

Siz 70-ci illərin ikinci yarısından - hələ Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil alarkən ədəbi fəaliyyətə başlamısınız. İlk şeirləriniz "Gənc müəllim" qəzetində dərc olunub.

80-ci illərdə povest-hekayələriniz, şeirləriniz dövrü mətbuatda - "Azərbaycan", "Ulduz", "Azərbaycan qadını", "Kənd həyatı" jurnallarında, "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi" və s. qəzetlərdə ardıcıl olaraq çap olunub.

Dövrün ictimai-siyasi hadisələrindən, müstəqillik uğrunda gedən mübarizədən, Qanlı Şənbə gecəsindən, Qarabağ müharibəsindən, erməni iddialarından bəhs edən onlarca hekayəniz - "Qarabağın maralı", "Girov", "Gözü yolda qalan var", "Gözlərimdən qan axır", "Güllü xalça", "Yanıq Kərəmi" kimi əsərləriniz erməni vəhşiliyinin, cinayətinin, vandalizminin əks-sədasıdır və yaddaşlarda, ədəbiyyatımızda özünəməxsuz yaşarlıq qazanıb.

90-cı illərdən başlayaraq "Qarabağın maralı", "Bənövşələr açanda", "Gözü yolda qalan var", "Duyğuların səması", "Qayıtmısan", "İki əsrin hekayələri", "Seçilmiş əsərləri 3 clddə", həmçinin, İkinci Qarabağ müharibəsindən bəhs edən "Qarabağın dayağı Bərdə, Bərdənin qüruru şəhidlər" və s. bədii kitablarınız oxucuların ixtiyarına verilib. Bu hekayə-şeirlərinizin əksəriyyəti Azərbaycan radiosundan səsləndirilib, neçə-neçə televerilişlərin mövzusu olub.

Siz uşaqları da unutmamısınız. "Ağ kəpənək", "Çərşənbə tonqalı" adlarında şeir və hekayələrdən ibarət kitablarınız da fidan balalar üçün çap olunub.

Hazırda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda aparıcı elmi işçi kimi çalışırsınız. Cənubi Azərbaycan ədəbiyyatını, Müstəqillik dövrü Azərbaycan poeziyasını tədqiq edirsiniz. İndiyə kimi "Balaş Azəroğlunun yaradıcılıq yolu", "Cənubi Azərbaycan mühacir poeziyası (1947-1990)", "Müstəqillik dövrü Azərbaycan poeziyası" monoqrafiyalarınız, həmçinin yüzə yaxın məqaləniz həm ölkəmizdə, həm də beynəlxalq aləmdə nüfuzlu elmi jurnallarda çap olunub.

Siz filologiya üzrə fəlsəfə doktoru, dosent elmi adlarını almısınız.

Hörmətli Bahar Xanım!

Sizi bir daha ədəbi-elmi fəaliyyətinizin 45 illiyi və yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzu edirik!

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 30 aprel.- S. 23.**